FÜZULİ ƏSGƏRLİ

# AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ MƏRHƏLƏLİ İNKİŞAFI

Bakı - 2009

etdiyi hər bir varlığı yaradıcı xəyalının qüdrəti ilə bəzəyir, bədii təxəyyülünün gücü ilə onu qeyri-adi dərəcədə poetikləşdirə bilir. Böyük yunan filosofu Aristotel (e.ə.384-322) haqlı olaraq yazırdı ki, «bədii təfəkkürün başlıca vəzifəsi hər hansı maddi varlıqda çatışmayan əlamət, keyfiyyət və xüsusiyyətləri yaradıcı xəyalın qüdrəti ilə sənət əsərində tamamlamaqdan ibarətdir».[1] Şair Zahid Xəlil də uşaq poeziyasında buna nail ola bilmişdir.

Əsasən, 60-cı illərdə Azərbaycan uşaq poeziya yaradıcılığı ilə diqqət çəkən T.Mahmud (1931-1997) gənclik illərində S.Vurğun, R.Rza, M.Rahim, S.Rəhimov, M.Hüseyn, Ə.Vəliyev, Y.Şirvan, Ə.Əlibəyli, İ.Səfərli kimi görkəmli sənətkarlarla müntəzəm görüşən və onlardan dəyərli məsləhətlər almış, milli poeziya və nəsrin möcüzəsi onu özünə cəlb etmişdir. «Göyərçin» uşaq jurnalında ədəbi işçi (1961-1975) və baş redaktor (1976-1997) vəzifələrində çalışması isə uşaq ədəbiyyatına meylini bir qədər də artırmışdır.

60-80-ci illərdə çoxlu sayda şeir və nəsr əsərləri çap etdirən şair-yazıçı T.Mahmudun «Dibçək» (1962), «Utancaq oğlan» (1964), «Meşədə səs» (1969), «Ana qucağı» (1971), «Dalğalar» (1976), «Pəncərəyə toxunan budaq» (1978), «Kəpənək gözəlliyi» (1980), «Şən şeirlər» (1983) və sair adda kitabları sənətkara böyük şöhrət gətirmişdir. «Meşədə səs», «Qızımın sualları», «Şən şeirlər» və «Kəpənək gözəlliyi» kitablarında toplanmış şeir və poemaları oxucular arasında geniş yayılmış, Moskvada nəşr olunan «Murzilka», «Vesyolıe kartinki» və «Pioner» uşaq jurnallarında müntəzəm olaraq çap edilmişdir.

T.Mahmud «Yola çıxıram» adlı ilk kitabını 1959-cu ildə nəşr etdirmişdir. Bu, onun 60-cı illərdə yaranacaq yeni forma və məzmuna malik bədii yaradıcılığına ilk addımı idi. Belə ki, bu illərdə uşaqların mənəvi keyfiyyəti qayğısına qalan şair, onlarda incəlik, həssaslıq hissləri tərbiyə etmək, biliyə sevgi duyğuları aşılamaq arzusu ilə rəngarəng mövzulara

[1] Аристотель. Политика. – Москва, 1911, с.35.

müraciət etmişdir. Uşaqların dünyaya baxışına və dərketmə qabiliyyətinə bələd olan şair poeziyasının dərin məzmununa, yaratdığı poetik effektə xüsusi diqqət yetirmiş, nəticədə, uşaq nitqinə məxsus spesifik ifadələrin düzümü ilə uğurlu uşaq əsərləri yarada bilmişdir. «Apar məni», «Ehey, durnalar», «Şeir sevən qız», «Hirslənən oğlan», «Uzunburun» və digər şeirləri olduqca maraq doğurur. Burada müxtəlif xarakterli uşaq obrazlarının mənəvi portretini canlandıran şair misra- ların poetik siqlətinə daha çox diqqət yetirmişdir.

«Ehey, durnalar» şeirində şair qərib, köçəri quşa olan uşaq məhəbbətini poetik dillə təsvir edir, uşaqlara məxsus olan sözlərdən məharətlə istifadə edərək qüvvətli təkrir yaradır («Ehey...ehey...durnalar»), bədii xitablarla vəhdətdə poetik obrazlılıq yaradır:

***Ehey...ehey...durnalar***
***Qanad açmaq istərəm.***
***Mən də bu göy üzünə***
***Qalxıb uçmaq istərəm...***

T.Mahmudun şeirlərində təbiət gözəlliyi öz parlaq əksini tapır. Burada uşaq anlamına uyğun olan konkret təsvirlər verməklə yanaşı, təbiət gözəlliyinin incə çalarları ilə poetik vüsət yaradır. Şair «Meşəyə yağış yağır» şeirində poetikanın zəngin palitrasından bəhrələnərək, müşahidə ilə görünə bilən ecazkar illüstrativ mənzərəni oxuculara təqdim edir:

***Səs salıb, ağır-ağır***
***Meşəyə yağış yağır.***
***Yarpaqlardan süzülür,***
***Budaqlardan süzülür.***

T.Mahmudun təbiət mövzusunda qələmə aldığı şeirləri az deyildir. «Qışda dağ meşəsi», «Qar tökülür», «Qırov», «Lirik damcılar» və sair şeirlərində poetik təsvirlər öz gözəlliyi ilə oxucunun könlünü oxşayır. «Poeziya mənim üçün həmişə möcüzədir... yenə də möcüzə olaraq qalır» deyən şair əsl sənətkar icadı və məharətilə öz əsərlərini yaratmışdır.

Azərbaycanın füsunkar təbiətinə dəlicəsinə vurğunluq, onun meşələrini, büllur bulaqlarını, coşqun çaylarını poetik misralarla təsvir etmək T.Mahmud yaradıcılığının əsas xüsusiyyətlərindən biridir.

Şair «Sehrli meşəbəyi» poemasında təbiətin ecazkar gözəlliyindən zövq alan, bu gözəlliyin pozulmaması üçün canını qurban verməyə belə hazır olan, təbiətin qoynundakı müxtəlif canlı varlıqların təhlükəsiz yaşaması üçün onların həyatına öz doğma övladının həyatı kimi münasibət bəsləyən meşəbəyi obrazını yaratmaqla bütün bəşər övladını ondan nümunə götürməyə, ekologiyanı göz bəbəyi kimi qorumağa çağırır.

Azərbaycan təbiətinin əsrarəngiz gözəlliyi ilə yanaşı, bərəkətli, bol məhsul gətirən torpaqları, Vətənimizin hər bir dilbər guşəsi T.Mahmud poeziyasında öz əksini tapır. Xalqın qəhrəman, basılmaz mərd oğullarının ölməz obrazlarını yeni nəslə nümunə göstərməklə onlarda vətənpərvərlik hissərini artırır, vətənimizin yealtı və yerüstü sərvətlərinə göz dikmiş nankor düşmənlərə qarşı mübarizəyə səsləyir .

T.Mahmud poeziyaya böyük qiymət verir, «bütün dünyada ən ülvi nemət poeziyadır,onsuz həyat solğun və mənasız görünərdi» deyən şair, poetizmin ən dərin qatlarına nüfuz edərək gözəl uşaq şeir nümunələri yaratmışdır.

60-80-cı illər poeziyasında yeni mövzulu xeyli poetik əsər meydana gəlmişdir. Bu əsər müəlliflərinin bir çoxu ya İkinci Dünya müharibəsi illərində doğulanlardı, ya da onların uşaqlığı müharibənin ağır dövrünə təsadüf etmişdir. Buna baxmayaraq, istedadlı sənətkarlarımızın yaratdıqları ədəbi qəhrəmanların simasında dövrün vurduğu yaraların izlərini görə bilirik. Məsələn, şair Ağasəfa «42-lər» şeirində alman faşizminə olan kəskin nifrətini bu əsərin ümumi pafosuna çevirə bilmişdir. Yaxud, şair Ə.Salahzadə «Boy» şeirində yaşıdlarının boyunun qısa olduğunu söyləyir və belə bir bədii ritorik sualla fikrinə aydınlıq gətirməyə çalışır: kimlər suyumuzu kəsdi ki, boyumuz belə qısa oldu?